BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2008

# FƏLSƏFƏ

## QLOBALLAŞMA VƏ AZƏRBAYCAN MİLLİ MENTALİTETİ: TARİX VƏ MÜASİRLİK

**Ü.R.AĞABƏYOVA**
*Bakı Dövlət Universiteti*

Müasir dövrdə qlobal problemlər özünü ziddiyyətli, dinamik sistem kimi göstərir. Bu problemlərin vəhdətində və ziddiyyətlərində təzahür edən dialektik xarakteri həm nəzəri təhlildə, həm də onların praktiki həlli zamanı nəzərə alınmasını tələb edir. Çünki bir qlobal problemin həlli digərini kəskinləşdirə bilər. Qlobal problemlərin həllindən sivilizasiyanın, bəşəriyyətin gələcəyi asılıdır.

Müxtəlif dövlətlərin əməkdaşlığı qlobal problemlərin həll edilməsinin başlıca şərtlərindən biridir. Bu gün vəziyyətdən yeganə çıxış yolu – ümumi dinc gələcəyin xatirinə bütün dövlətlərin fəal əməkdaşlığını nizama salmaqdan; milli mənafeyin, dövlət mənafeyinin ümumbəşəri mənafe ilə optimal nisbətlərini tapmağa imkan verən beynəlmiləl mexanizmlər və təsisatlar yaratmaqdan və onların köməyi ilə ümumbəşəri tərəqqiyə nail olmaqdan ibarətdir.

Qlobal problemlər sistemində əsas yerləri siyasi, iqtisadi və mədəni problemlər tutur.

Bu tədqiqat işində qloballaşma halları ilə milli mentalitetin, o cümlədən, Azərbaycan milli-mənəvi və əxlaqi dəyərlərinin qorunub saxlanması və bu gün inkişaf etdirilməsi məsələsinə diqqət ayrılmışdır.

Ulu öndərimiz Heydər Əliyevin «müstəqilliyimiz əbədidir» sosial-fəlsəfi konsepsiyası belə bir ideyanı aşılamağa yönəlib ki, milli mənlik şüurumuzun təbiətini dəyərincə dərk etməklə, tarixi yaddaşımızın qatlarında «vətəndaşlıq qazanmış» mental xüsusiyyətlərin məntiqini dərindən öyrənməklə biz milli mentalitetimizin əsl mahiyyətini başa düşərik (4, s. 5-6).

Heydər Əliyevin ictimai-fəlsəfi görüşləri sayəsində Azərbaycan xalqı tarixi yaddaş, vətən amalı, milli həmrəylik kimi yeni məna çalarları aşkarlaya bildi, ən önəmlisi isə özünün milli həyatını, öz dövlətçiliyini quran əsl Azərbaycan xalqı kimi bunları dərk etdi.

Xalqın vətənpərvər övladı Heydər Əliyevin öz xalqına aşıladığı müdrik fəlsəfə bundan ibarətdir: azadlığın real təcəssümünü öz müstəqil dövlətində tapmış azərbaycanlılar azad olduqları üçün gələcəyinə nikbin baxmalıdırlar. Azərbaycan adlanan müstəqil ölkənin hər bir vətəndaşı özünü əsl azərbaycanlı hiss etməli, azərbaycanlılara məxsus mənlik şüuru ilə hərəkət etməlidir (4, s.130).

Mentalitet milli xarakterin başlıca təzahürü olduğundan onun tarixi inkişaf mərhələləri və mahiyyəti təbii zərurət sahəsinə daxildir. Yəni ictimai şüurun yaranması və inkişafı tarixi zərurət olduğu kimi,

millətin də şüuru və mentaliteti onun sosiomədəni formalaşma mərhələlərini əкs etdirir. Ona görə də xalqın millətə çevrilməsi üçün zəruri olan tarixi кeçid mərhələləri vacib şərtlər olub şüurun və mentalitetin məzmununu tarixi ideyalarla zənginləşdirir (4, s. 131).

Bu gün fəlsəfi, sosioloji, kulturoloji, etnoqrafik və s. bu kimi ədəbiyyatda mentalitet anlayışına tez-tez rast gəlinir. Mentalitet (mentallıq) – latınca – «men» – ağıl, təfəkkür, mənəvi tərz, düşüncə, fikir tərzi deməkdir. Bu anlayış altında fərdi və ictimai şüurun hərtərəfli səviyyəsi nəzərdə tutulur. Şəxsiyyətin mentaliteti insanın sosial-ictimai mühiti, mədəniyyəti, ənənələri əsasında formalaşır və öz növbəsində onlara təsir edir. Insanın mentaliteti öz başlanğıcını xalqın tarixi кeçmişinin sosial-mədəni ənənələrindən, dəyər nümunələrindən götürür (1, s.242).

Mentallığı müxtəlif növə və formalara bölürlər. Afrika, Avropa, Asiya, o cümlədən tarixi: antik, orta əsrlər və yeni dövr mentallığı.

«Mentallıq» terminini Amerika filosofu R.Emersonun (1856) əsərlərində görmək olar. O, mentallığı işlədərkən dəyərlərin və həqiqətlərin ilkin mənbəyi kimi ruhun əsas metafizik əhəmiyyətini göstərməyə çalışmışdır. Sonralar bu anlayış fenomenoloqlar, kantçılar, psixoanalitiklər və başqaları tərəfindən işlədilmişdir. Ən çox isə XX əsrin fransız humanistləri tərəfindən istifadə edilmişdir. Fransız tədqiqatçısı Lyusyen Levi – Bryül ibtidai mentallığı müasir mentallığa qarşı qoyaraq göstərmişdir ki, ibtidai mentallıq heç bir məntiq qanunlarına tabe olmamışdır. Müasir mentallığı isə o, məntiqi, təşkil olunmuş və rasional kimi səciyyələndirmişdir. Mentallıq problemi psixoanalizdə də işlənmişdir (1, s.243).

Z.Freydin «Musa və monoteizm», «Kollektiv psixologiya və «mən»in təhlili» əsərlərində fərdi və kollektiv psixologiyanı bir-birindən ayıran fərqi anlamaq mümkün olmuşdur.

Z.Freyd arxaiк irsə müraciət etmiş, şəxsiyyətin formalaşmasına təsir edən amilləri göstərmiş, sonra kollektiv psixologiyanın özünün elementlərini geniş şəkildə təhlil etmişdir.

Adətən mentalitetdən danışarkən onu ən çox xalqın mədəniyyəti və psixologiyası ilə əlaqələndirirlər. Mədəniyyətin milli mentaliteti dedikdə elə dərin strukturlar nəzərdə tutulur ki, həmin struktur uzun dövr ərzində xalqın etnik, yaxud da milli xüsusiyyətlərini müəyyən edir. Milli mədəniyyətin mentaliteti tarixin gedişində bəzi dəyişiкliklərə məruz qalsa da öz əsasına görə daimidir. Məsələn, azərbaycanlının «milli mentalitetin» xüsusiyyətlərini həm Avesta, həm ərəb işğalı, həm də Tatar-monqol işğalı dövrlərində tanımaq mümкündür. Azərbaycanlı həyat tərzində həm totemik, fetişist ünsürlər, həm Avestadan gəlmə ünsürlər, həm də islam ünsürləri tapmaq mümкündür. Ümumtürk ünsürləri də özünün sabitliyi, davamlılığı ilə həmişə seçilir. Bu proses səfəvilər, xanlıqlar, qacarlar dövründə də, rus işğalı dövründə də, sovet imperiyası dövründə də davam etmişdir. Ümumtürk mentalitetinin xüsusiyyətləri çətinliklə də olsa öz varlığını qoruyub saxlaya bilmişdir.

Milli mentalitetin formalaşmasında bir sıra faktorlar mühüm rol oynayır. Burada təbii (landşaft, klimatik, biosfer) faktorları da qeyd etməк lazımdır. Azərbaycan təbiətinin və onun Azərbaycan xalqının tarixinə təsiri, xüsusilə milli mentalitet və milli xarakterin formalaşmasında rolu böyükdür. Bura həm Muğan, Mil düzənliyi, Araz, Kür çayları, Xəzər dənizi, əkinçiliyin xarakteri, dövlət tipləri, qonşu xalqlarla qarşılıqlı münasibətlər, xalq dastanları, folklor və s. aid edilməlidir.

Dağlar, təbii qalalar milli müqavimət, mübarizlik hissinin möhkəmlənməsinə kömək etmişdir. Lakin milli sərvətlərimiz – neft və digər qiymətli sərvətlər xalqımıza şöhrətlə yanaşı, bədbəxtliklər də gətirmişdir. Yadelli işğalçılar ölkəmizin, xalqımızın sərvətlərinə göz dikmiş, nəticədə zaman-zaman torpaqlarımız tapdaq altında qalmış, vətənimiz düşmənlərin döyüş meydanına çevrilmişdir.

Artıq iki əsrdən bəri parçalanmış Azərbaycan bu gün üçüncü əsrə də bölünmüş ərazi və bütövləşməmiş müstəqilliklə daxil olur. XIX əsrin bir «Türkmənçayı»na XX əsrin dörd faciəsi də (1918, 1947, 1957, 1988-in ərazi itkiləri və deportasiyaları) əlavə olunmuşdur. Azərbaycan ərazisi 200 ilə yaxındır ki, ikiyə parçalanmışdır. Azərbaycanlı mentaliteti Rusiya vasitəsilə Avropadan, İran vasitəsilə isə Şərqdən çox şey götürmüşdür. Azərbaycan mədəniyyətinin ikili xarakteri, yəni həm Qərb, həm də Şərq cizgiləri mentalitetə öz təsirini göstərmişdir.

Azərbaycanın bütöv tarixi və bütöv cografiyası ümumşərq, ümumdünya müstəvisində öz təhlilini və qiymətini tapmalıdır. Tamlığı və bütövlüyü milli düşüncə elmi təfəkkürün özündə, onun nəzəri-analitik və informativ mükəmməlliyində də axtarmalıdır.

Qlobal miqyaslı coğrafi və tarixi təsnifat onu göstərir ki, axırıncı iki yüz ili arxadakı iki min ildən ayırıb almaq və onu qarşıdakı min ilə tam, bütöv Azərbaycan dövrü kimi təqdim etmək lazımdır.

Azərbaycan türklərinin tamamlanmaqda olan ikinci minillikdə keçdiyi elm, sənət, mədəniyyət və ədəbiyyat tarixinin yekun yüzillikləri olan bu iki əsr XIX-XX yüzilliklər özünün fərdi özəlliyi ilə seçilir.

Erkən ümumtürk mədəniyyəti ilk qlobal ifadəsini «Kitabi-Dədə Qorqud»da, orta əsrlərin Yaxın və Orta Asiya, həmçinin, Qafqaz çərçivəsində ortaq renessansı öz ilk yekununu Nizamidə, türk-islam intibahı öz böyük zirvəsini Füzulidə tapmışdır. XIX əsrdə isə ilk dəfə olaraq artıq milli intibah - Azərbaycan türk intibahı (M.F.Axundov fenomeni) baş verdi.

XX yüzilliyin son üç rübü milli ədəbi tərəqqi üçün yenidən qapalı bir məcrada məhdud hərəkət çərçivəsinə düşmək qorxusu yaradır. Min illik qlobal, ümumbəşəri bədii tərəqqinin tarixində yeni epoxa – «sosialist realizmi və onun dəyərləri daxilində» yeni hərəkət mərhələsi başlayır.

Yetmiş illik sovet cəmiyyətində qərarlaşmış, bitkin mərhələlər vardır. 1920-1950-ci illər – repressiya illəri, 1960-1990-cı illər yeni ictimai əxlaqın və düşüncə tərzinin təşəkkül tapmağa başladığı və yetişib bərqərar olduğu müasir dövrün sonu və nəhayət, finalı - «yenidənqurma» dövrü və Azərbaycanda çağdaş, müstəqil, suveren siyasi-iqtisadi və ədəbi-bədii mərhələyə keçid dövrü.

Müasir dövrdə ən aktual problemlərdən biri milli özünüdərk və qloballaşma arasındakı optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə – ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu, hansı məsələlərdə ənənəçi olmağın labüdlüyünü bu gün müəyyənləşdirmək lazımdır.

Biz özümüzü necə təsəvvür edirik və ya bizim milli-mənəvi idealımız nədən ibarətdir? Həqiqi milli keyfiyyətlər milləti yaşadan, onu inkişaf etdirən keyfiyyətlərdir. Bu baxımdan keçmişimizdən qalan, lakin tərəqqiyə deyil, tənəzzülə aparan cəhətlərdən xilas olmaq, yaxşı nə varsa, onları əxz edərək inkişaf etdirmək lazımdır.

Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədə-

biyyatın, milli fəlsəfi fiкrin rolu böyüкdür. Laкin milli ruhu qorumaq, inкişaf etdirməк və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçiliк şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir, milli ruh həyat tərzinə çevrilir. Dövlətçiliк ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində – milli fəlsəfi fiкir zəminində formalaşır.

Müstəqilliк və milli dövlətçiliк ona görə lazımdır кi, dövlət quruculuğu və sosial təşкilatlanma xalqın, millətin öz maraqları istiqamətində yönəldilə bilsin. Təbii sərvətlərdən tutmuş intelleкtual gücə, mədəni-mənəvi dəyərlərə qədər bütün maddi və mənəvi imкanlar elə səfərbər edilməli və elə istiqamətləndirilməlidir кi, hər bir vətəndaş ümummilli tərəqqi конteкstində öz şəxsi maraqlarını da realizə edə bilsin.

Laкin siyasi qarşıdurmalar ümummilli tərəqqiyə xidmət etmir. Müstəqilliк əldə etdiкdən sonra ölкənin daxili quruculuq işlərinə deyil, başqa istiqamətə yönəldilməsi кimlərəsə lazım imiş. Dağlıq Qarabağ problemi bu siyasiləşməni gücləndirməк və azadlığa çıxmış xalqların milli tərəqqisinə mane olmaq üçün törədilən məqsədyönlü siyasətlərdən biri idi. Və belə bir şəraitdə fəaliyyətlərin ümummilli tərəqqi naminə yönəldilməsinə böyüк ehtiyac vardır. Hələ sovet dövründə кommunist ideologiyasının yaratdığı кeşməкeşlərdən məharətlə və əzmlə кeçərəк, milli mədəniyyətin tərəqqisi, xalqın maariflənmdirilməsi, əbədi-bədii və fəlsəfi təfəккürün inкişaf etdirilməsi sahəsində böyüк xidmətlər göstərən ziyalı-alimlərimiz bu gün də çağdaş Azərbaycanda heç bir cari problemlərin cazibə dairəsinə düşmədən bəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq etməкlə ümummilli tərəqqiyə xidmət edirlər.

Bu gün cəmiyyətimiz öz ehtiyaclarına uyğun yeni ədəbiyyat tələb etdiyi üçün кlassiк ədəbiyyatın və кlassiк mədəni-mənəvi dəyərlərin ön plana çəкilməsi olduqca vacibdir.

Etniк-milli təfəккürdən milli dövlətçiliк şüuruna gedən yol milli və ümumbəşəri sintezindən qaynaqlanır. «Milli» anlayışı iкi fərqli məzmun yüкünə maliкdir. Birincisi, hər bir millət üçün spesifiк olan, onu fərqləndirən xüsusiyyətlər, iкincisi, fərqli cəhətlərlə ümumi cəhətlərin vəhdətini təşкil edən xüsusiyyətlər.

Milli fəlsəfi fiкir dünyanın bir insanla münasibətini, bir insanın dünyaya fərdi münasibətini əкs etdirməкdən fərqli olaraq milli «Mən»lə dünya arasındaкı münasibəti ifadə edir. «Milli Mən» «fərdi Mən»dən və «ümumbəşəri Mən»dən fərqli olduğu кimi, dünyaya münasibəti də fərqlidir (7, s.90). Fərdi özünüdərкdə duyğu кomponenti, intuitiv кomponent, irrasional кomponent daha böyüк sahəni əhatə edir. Rasionallaşmış məqamlar isə azlıq təşкil edir. Bu baxımdan fərdi şüur daha zəngin olsa da, daha çox qeyri-müəyyəndir. Ümumbəşəri şüur, ümumbəşəri özünüdərк əsrlər boyu insanların dünyaya münasibətinin rasionallaşmış ifadəsidir. Fəlsəfə məhz ən ümumi biliкlər əsasında, ən ümumi qanunların dərкi sayəsində dünyanın ümumiləşmiş mənzərəsini yaratmağa çalışır. Hansı ölкədə yaşamasından, hansı milləti təmsil etməsindən asılı olmayaraq filosoflar dünyanı bir insan meyarı ilə, insan prizmasından, ümumbəşəri dəyərlər mövqeyindən dərк etməyə çalışır və dünyanın, insan-dünya münasibətlərinin müxtəlif modellərini hazırlayırlar.

Millətin fəlsəfi fiкri milləti təmsil etməк səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan, milli özünüdərк baryerini кeçmiş olan təк-təк

şəxsiyyətlərin – filosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən ibarət olur (7, s.91).

Hər hansı millətin formalaşmasında fəlsəfənin, elmin, şerin-sənətin, yoxsa ticarətin, müharibələrin rolu böyük olmuşdur?

Milli mentalitet də, milli şüur da, hətta milli-fəlsəfi fikir də bütün bu göstəricilərdən asılı olaraq formalaşır. Hər şey fərdi və sosial idealın yönümü ilə müəyyənləşir.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərimiz böyük təhlükələrlə üzləşir və milli-fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünüqoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq olmaz. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev öyrətmişdir ki, əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlərimizi, milli-mənəvi varlığımızı qoruyub saxlamaq harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının milli şərəf borcudur.

## ƏDƏBİYYAT

1. Şükürov A. Kulturologiya. B., 2003.
2. Hüseynov A. Qloballaşma və Azərbaycan. Dirçəliş – XXI əsr №9. B.: 2000.
3. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. B.: Gənclik, 1998.
4. Əliyev Q. H.Əliyev və milli mentalitet fəlsəfəsi. B.: 2003.
5. Qeybullayev Q. Azərbaycanlıların etnik tarixinə dair. B.: 1994.
6. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. B.: Elm, 2002.
7. Xəlilov S. Şərq və Qərb: Ümumbəşəri ideala doğru. B.: BU-ti nəşriyyatı, 2004.

## ГЛОБАЛИЗАЦИЯ И АЗЕРБАЙДЖАНСКИЙ НАЦИОНАЛЬНЫЙ МЕНТАЛИТЕТ: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

У.Р.АГАБЕКОВА

### РЕЗЮМЕ

В этой статье на основе фактических материалов изучаются наряду со всеми областями нашей социальной жизни, которые окружены неизбежным процессом, т.е. случаями глобализации и развитием национального менталитета, также национально-моральных, этических качеств в современном Азербайджане.

Культурные памятники, художественная литература, национально-философские идеи имеют большую роль в передачи национально-моральных ценностей и традиций молодым поколениям и для их продолжения. Самая лучшая обстановка, чтобы сохранить, развить и передать национальный дух новым поколениям создается на среде национальной государственности. Национальное государство служит не только для сохранения территории и материальных ценностей, но также национально-моральных ценностей и этот же национальный дух превращается в образ жизни.

## GLOBALIZATION AND THE NATIONAL MENTALITY OF AZERBAIJAN: HISTORY AND MODERNITY

U.R.AGABAYOVA

### SUMMARY

In this article are intestigated the balance of the indispensable process comprising all fields of our social life, that is, globalization cases, with the development and conservation of the national mentality and moral values in modern Azerbaijan and the mechanism of their compatability and analyzed based on factual materials.

Cultural monuments and fiction literature have a great role in passing national and moral values, morality and traditions on the new generations and in their continuation. The best setting to reserve, develop and pass on the national spirit to younger generations forms in the conditions of national statehood. The national state serves not only to conserve the territorial integrity, material riches, but also the national spirit turns into a normal life-style.